Funded by the European Union

# Azərbaycanda Çoxgöstəricili Klaster Sorğusunun (MICS) keçirilməsinə və statistika sahəsində milli potensialın gücləndirilməsinə dəstək




**İcra müddəti:** 01.01.2023 - 01.01.2026

**ŞT ölkələri:**
Azerbaijan

**Aİ-nin maliyyə yardımı:** € 1 500 000

**Ümumi büdcə:** € 1 500 000

**İcraçı təşkilat(lar):**
UNICEF

**Sosial media hesablarına keçidlər:**

**Internet səhifəsi:** mics.unicef.org

**Layihənin təsviri:**

Çoxgöstəricili Klaster Sorğuları (MICS), qadın və uşaqları diqqət mərkəzində saxlamaqla, ev təsərrüfatlarına aid əsas göstəricilərin təqribi qiymətlərini toplamaq üçün hazırlanmış ən irimiqyaslı ev təsərrüfatı tədqiqatı proqramlarından biridir. MICS 1990-cı illərdə həyata keçirilməyə başlayandan bəri, 100-dən yuxarı ölkədə 300-dən artıq sorğu aparılıb. Azərbaycanda sonuncu MICS sorğusu UNICEF və digər tərəfdaşların texniki və maliyyə dəstəyilə Dövlət Statistika Komitəsi tərəfindən 20 il əvvəl - 2000-ci ildə həyata keçirilib. Yüksək keyfiyyətli və dezaqreqasiya olunmuş məlumatların istehsalı və təhlili üzrə milli potensialları daha da gücləndirmək məqsədilə göstərilən qlobal səylər çərçivəsində, UNICEF 2016-cı ilin oktyabr ayında MICS sorğusunun 6-cı raunduna (MICS6 kimi tanınır) start verdi. Bu proqram məhz Dayanıqlı İnkişaf Məqsədləri fonunda siyasətlərin qəbuluna məsul tərəflərin ehtiyaclarının qarşılanmasına yönəlir. MICS-in qlobal statusunu nəzərə alaraq və UNICEF-in Azərbaycan Nümayəndəliyinin apardığı təşviqatın nəticəsi olaraq, MICS sorğusunun keçirilməsi "2018–2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"na daxil edildi. Hazırda, Dövlət Statistika Komitəsi və UNICEF son iyirmi il ərzində ilk MICS sorğusunun icrasına birlikdə hazırlaşır. Sahə işlərinin 2022-ci ildə həyata keçirilməsi planlaşdırılır və ilkin nəticələrin 2023-cü ilin ortalarında əldə olunması gözlənilir.

**Gözlənilən nəticələr:**

Daha dəqiq desək, Proqram "Ümumi Nəticə" səviyyəli əsas nəticələrə nail olmağı nəzərdə tutur:
• Heç kəsi kənarda qoymayan qərarların qəbulu və siyasətlərin hazırlanmasında istifadə üçün gender üzrə təsnifləşdirilmiş, vaxtında təqdim olunan və beynəlxalq səviyyədə qəbul edilmiş metodologiyaya uyğun olaraq təhlil edilmiş məlumatların mövcudluğu və istifadə edilməsi.
• Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin (DSK) yüksək keyfiyyətli, etibarlı və dezaqreqasiya olunmuş məlumatların istehsalını idarə etmək potensialının artması.
• Azərbaycanda gender bərabərliyinin gücləndirilməsinə və qadınların səlahiyyətlərinin artırılmasına yönələn, sübutlara əsaslanan siyasət və proqramlar.